

# Regionların tərəqqisi inkişaf strategiyasının əsas məqsədlərindən biridir

***Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal pandemiya dövründə Azərbaycanın bölgələrinin inkişafı istiqamətində atılan addımlar, reallaşdırılan layihələr xüsusi diqqət çəkir. Ötən müddət ərzində dövlətimizin başçısının rayonlara səfərləri çərçivəsində sosial obyektlərin, yeni müəssisələrin açılış mərasimlərindəki çıxışları, imzaladığı sərəncamlar, müvafiq strukturların nümayəndələrinə verdiyi tapşırıq və tövsiyələri də mühüm önəm daşıyır. Ölkə rəhbərinin bu cür hərtərəfli qayğısı bölgələrimizə yeni nəfəs gətirməklə yanaşı, yeni imkanlar da açır, rayon mərkəzləri və kəndlərin tərəqqisi üçün yeni vəzifələr müəyyənləşdirir.***

*Uğurlu inkişafımızı, sabitliyi şərtləndirən, cəmiyyətdə xoş əhval-ruhiyyəni formalaşdıran bizim siyasətimiz və addımlarımızdır. Nəyi demişiksə, onu da etmişik. Bir dənə də icra edilməmiş vəd yoxdur. Heç kim bunu tapa bilməz. 2003-cü ildə və ondan sonrakı illərdə nəyi demişəmsə, onu da etmişəm. Ona görə bizim sözümüzə də, işimizə də xalq tərəfindən böyük inam var. Mən həmişə demişəm ki, bizim sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın noyabrın 1-də İsmayıllı və Şamaxı rayonlarına səfərləri də bunun bariz ifadəsidir. Xatırladaq ki, dövlətimizin başçısı və birinci xanım həmin gün əvvəlcə İsmayıllı şəhərində görülən abadlıq-quruculuq işləri ilə tanış olublar. Burada Prezident İlham Əliyev və Mehriban xanım Əliyevaya verilən məlumatda İsmayıllı şəhərinin Babək küçəsində ideya və üslub baxımından fərqli abadlıq işlərinə başlanıldığı, Heydər Əliyev parkına aparan, uzunluğu 400 metrə yaxın olan küçədəki abadlıq işlərinin rayonun gənc rəssamlarının birgə ideyaları əsasında həyata keçirildiyi, xüsusi memarlıq görünüşünü özündə ehtiva edən abadlıq işlərinin həm rayon sakinlərinin, həm də İsmayıllıya gələn qonaqların marağına səbəb olduğu bildirilib.

Şəhərdə aparılan abadlıq-quruculuq işləri Heydər Əliyev Parkını da əhatə edib. Burada attraksionlar, yeni trenajorlar quraşdırılıb. Eyni zamanda, yenidənqurma işləri çərçivəsində parkda yeni bəzək gül kolları və ağaclar əkilib, oturacaqlar yenilənib, işıq sistemi dəyişdirilib. Bu il şəhərin bir neçə küçəsinin asfaltlanması da başa çatdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva daha sonra İsmayıllı şəhər Natiq Mehdiyev adına 6 saylı tam orta məktəbin, Uşaq və Ailələrə Dəstək Mərkəzinin yeni binalarının açılışında iştirak ediblər. Daha sonra dövlətimizin başçısı və birinci xanım səfər çərçivəsində






Lahıc qəsəbəsində olublar. Burada Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanış olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şamaxıya səfərləri də rayonda tikinti-abadlıq, quruculuq işlərinin sürətlə aparıldığını göstərdi.

Burada "Azərişıq" ASC-nin Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzinin açılışından sonra Şamaxı şəhərində Gənclər Parkında görülmüş işlərlə tanışlıq başlanıb. Sonra Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxı şəhərində inşa edilən 7 saylı körpələr evi-uşaq bağçası və Yaradıcılıq Mərkəzi, habelə şəhər stadionu, akademik Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib. Bütün bunlarla bərabər, Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurma işlərindən sonra açılışı da yaddaqalan hadisəyə çevrilib.

Sosial dövlət olan Azərbaycanda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına daim həssaslıqla yanaşılır. Ayrı-ayrı proqramların icrası zamanı da bu məsələ xüsusi diqqətdə saxlanılır. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması da iş yerlərinin yaradılması prosesini sürətləndirir. Beləliklə, respublikada iqtisadi fəallığın davamlı şəkildə artması fonunda yeni iş yerləri açılır, bu isə təbii ki, insanların həyat səviyyəsinin yüksəlməsində özünü qabarıq büruzə verir.

*(ardı 5-ci səhifədə)*



# Regionların tərəqqisi inkişaf strategiyasının əsas məqsədlərindən biridir

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, burada bir məqamı xüsusilə vurğulamaq istərdik. Belə ki, son 18 ildə respublikamızda kənd yollarının inşası və yenidən qurulması geniş vüsət alıb. Bütün bölgələrdə kənd yollarının tikintisi ilbəil daha da genişləndirilib. Həm sosial, həm də iqtisadi baxımdan mühüm önəm daşıyan həmin layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılıb. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına təkan verib, kənd təsərrüfatı məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradıb. Kənd yollarının inşasının genişləndirilməsi məqsədilə büdcə vəsaiti ilə yanaşı, Prezidentin Ehtiyat Fondundan da əlavə vəsait ayrılıb.

Noyabrın 1-də dövlətimizin başçısının iştirakı ilə İsmayıllı rayonunda başlanğıcını Muğanlı-İsmayıllı yolunun 17-ci kilometrliyindən götürən Basqal-Sulut avtomobil yolunun istifadəyə verilməsi də bunun əyani ifadəsidir.

Xatırladaq ki, Basqal-Sulut avtomobil yolunun inşası Prezident İlham Əliyevin ötən ilin iyulunda imzaladığı sərəncama uyğun olaraq aparılıb. İki hərəkət zolaqlı yol dörd min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. Basqal, Qıçatan, Tağlabiyan, Kəlfərəc, Zeyvə, Kürdüvan, Xankəndi, Mücü, Sərsurə, Kələzevə və Sulut kəndlərini birləşdirən avtomobil yolunun uzunluğu 30,1 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Yol üzərində 4 körpü tikilib və zəruri yol infrastrukturu yaradılıb.

Dövlətimizin başçısına İsmayıllı rayonunun Hacıhətəmli-Gideyli-Kürd Eldarbəyli avtomobil yolunda aparılmış işlər barədə də məlumat verilib. Qeyd edilib ki, uzunluğu 13 kilometr olan bu yol uzun müddət təmir olunmadan istifadə edildiyindən və təbii amillərin təsirindən yararsız vəziyyətdə olub. Hazırda isə yol müasir səviyyədə yenidən qurulub.

Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq inşa edilən yol 4 minə yaxın əhalinin yaşadığı 3 yaşayış məntəqəsi arasında gediş-gəlişi rahatlaşdıracaq, kənd təsərrüfatının, xüsusən də üzümçülüyün inkişafına töhfə verəcək.

Qeyd edək ki, ölkəmizdə yollar yeniləndikcə, kənd təsərrüfatı, turizm və digər sahələrdə də inkişaf sürətlənir, bölgələrdə iqtisadi canlanma müşahidə olunur.

İsmayıllı və Şamaxı rayonlarının timsalında da deyə bilərik ki, Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Regionların inkişafı sahəsində qəbul edilən və yüksək səviyyədə gerçəkləşdirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası respublikada qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin, sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Yeri gəlmişkən, regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından əvvəl bu istiqamətdə qəbul edilən (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) digər proqramların icrası dövründə ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə reallaşdırılan məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə açılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. Dövlət proqramları çərçivəsində görülən genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaradıb.

Azərbaycanda regional proqramların uğurla icrası aqrar sektorun inkişafını sürətləndirib. Bununla bərabər, Prezident tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən üzümçülüyün inkişafı istiqamətində görülən tədbirlər, həmçinin istehsalçılara subsidiyaların verilməsi haqqında qəbul edilən qərarlar istehsal və ixrac potensialının artırılmasını, məşğulluq səviyyəsinin yüksəlməsini şərtləndirib.

Dövlətimizin başçısının Şamaxıya səfəri çərçivəsində Üzüm Tingçilik Mərkəzinin istifadəyə verilməsi də kənd təsərrüfatının inkişafına göstərilən qayğının bariz ifadəsidir.

Üzüm Tingçilik Mərkəzinin açılışında dövlətimizin başçısına birinci xanıma bu təsərrüfat obyekti barədə məlumat verilərək, bildirilib ki, Şamaxı Üzüm Tingçilik Mərkəzinin yaradılmasında məqsəd respublikanın üzümçülük təsərrüfatlarını müxtəlif iqlim şəraitinə adaptasiya qabiliyyətli, filloksoraya davamlı calaq-üzüm əkin materialı ilə təmin etməkdir. Mərkəzin illik istehsal gücü 1 milyon ədəd ting təşkil edir.

Burada dördü yerli - Mədrəsə, Bayanşirə, Məlayi, Xindoqni olmaqla 10 texniki və bir yerli Ağadayı sortu olmaqla 15 süfrə üzüm sortlarının tingləri istehsal olunacaq. Bundan əlavə, 6 xarici sort və hibrid üzrə filloksera-yaya davamlı anaclıqlar da yetişdiriləcək. Şamaxı Üzüm Tingçilik Mərkəzinin fəaliyyətə başlaması üzüm tinglərinə olan tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etməklə xaricə valyuta axınının qarşısını alacaq. Mərkəzdə istehsal olunan tinglər region və Mərkəzi Asiya ölkələrinə ixrac olunacaq.

Onu da deyək ki, burada aqrar mühəndislik, budama, şpalerlərin çəkilməsi və digər istiqamətlər üzrə qısamüddətli və peşəyönümlü kursların təşkili, xəstəlik və zərərvericilərlə mübarizədə elmi-praktiki dəstəyin göstərilməsi, tarla məktəblərinin yaradılması, sort xüsusiyyətlərinin öyrədilməsi planlaşdırılır. Bununla yanaşı, yerli sortlardan ibarət gen banklarının formalaşdırılması, invitro şəraitində yetişdirilən tinglərdən ibarət bağların yaradılması, nümunə şərabların istehsalı və təşviqi, şərab kolleksiyalarının formalaşdırılması da diqqət mərkəzində olacaq.

Yeri gəlmişkən, Azərbaycan üzüm istehsalına görə ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə sovet məkanında aparıcı respublikalardan biri olub. Ölkəmizdə 600-ə qədər aborigen və introduksiya olunmuş üzüm sortları becərilib və bunlardan təxminən 400-ü yerli üzüm sortlarıdır. Buna misal olaraq Ağ şanı, Qara şanı, Mədrəsə, Meysəri, Təbrizi və digərlərini göstərmək olar.

Hazırda ölkədə yerli üzüm sortlarından daha məhsuldar və yerli şəraitə uyğun 38 üzüm sortu geniş yayılıb və onlar sahibkarlıq subyektləri tərəfindən becərilir. Onu da deyək ki, 2020-ci ildə ölkədə 208 min tondan çox üzüm istehsal olunub. Bu da 2019-cu il ilə müqayisədə 3.1 faiz çoxdur.

*İlqar HƏSƏNOV,*
*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

Xalq qəzeti.- 2021.- 3 noyabr.- S.1;5.